*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    1 may 2019-cu il    № 33 (2350)    Qiymət 30 qəpik


## “Döyüşə biz də hazırıq”



*Artilleriya qoşunlarının döyüş prosesində mühüm əhəmiyyətə malik olması danılmaz faktdır. Bu gün dünyada baş verən beynəlxalq və regional münaqişələrdə artilleriya istənilən döyüşün müqəddəratını dəyişmək iqtidarındadır. 2016-cı ilin Aprel döyüşləri də münaqişənin gedişində artilleriyanın əhəmiyyətini sübut etdi.*

Azərbaycanın hərb tarixinə nəzər salsaq görərik ki, bu torpaq çoxlu sayda təcrübəli artilleriyaçılar yetişdirib. Döyüş meydanında öz sözünü demiş görkəmli artilleriyaçılarımız - Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov, Yaqub Qasımov irsinin davamçıları olan gənc topçularımız da öz üzərlərində daim çalışır, bilik və bacarıqlarını artırırlar. Qəhrəmanlıq ənənələrinə sadiq olan hərbçilərimiz və onların tabeliyində xidmət edən əsgərlərimiz döyüş hazırlıqlarını durmadan yüksəldirlər. Ön xətdə xidmət edən topçularımızla tanışlıqdan sonra bunun bir daha şahidi oldum.

(Ardı 3-cü səhifədə)

## “Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq”

Mən tam əminəm ki, hər bir ölkənin inkişafı üçün demokratiya xüsusi rol oynayır. Ölkə iqtisadi cəhətdən, o cümlədən təbii resurslarla zəngin ola bilər, lakin cəmiyyətdə gözəl ab-hava, azadlıqlar yoxdursa, bu inkişaf yarımçıq ola bilər və ya dayanıqlı olmaya bilər. Bizim üstünlüyümüz ondan ibarətdir ki, siyasi və iqtisadi islahatları paralel şəkildə aparırıq. Bu da hesab edirəm ki, çox düzgün və düşünülmüş siyasətdir. Əgər demokratiya baxımından inkişaf etmiş ölkələrə nəzər salsaq görərik ki, onların mütləq əksəriyyəti iqtisadi cəhətdən də inkişaf etmiş ölkələrdir. Yəni maddi rifah, iqtisadi inkişaf, sosial inkişaf demokratik inkişaf üçün əsas şərtdir.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 81-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Milli Mətbuat Günü münasibətilə jurnalistlər üçün tikilmiş növbəti binada mənzillərin paylanması mərasimində söylədiyi nitqində səsləndirib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin bu kitabındakı materiallar 2017-ci ilin iyun-avqust aylarını əhatə edir.

Kitabda dövlətimizin başçısının Polşa və Latviyaya rəsmi, Türkiyə və Rusiyaya işgüzar səfərləri zamanı, həmçinin Türkmənistan Prezidentinin Azərbaycana səfəri zamanı bu ölkələrin rəhbərləri ilə danışıqlarına, imzalanan sənədlərə, təhsil, mədəniyyət sahəsində anlaşma və hərtərəfli əməkdaşlıq məsələlərinin müzakirəsinə dair materiallar toplanıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Nəşrdə Prezident İlham Əliyevin 2017-ci ilin iyun-avqust aylarında müxtəlif ölkələrin dövlət başçılarına məktublarının mətnləri də yer alıb.

# Müdafiə naziri “IDEF-2019” sərgisinin açılış mərasimində iştirak edib




Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, aprelin 29-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İstanbul şəhərində keçiriləcək "IDEF-2019" Beynəlxalq Müdafiə Sərgisində iştirak etmək üçün Türkiyə Respublikasına yola düşüb.

Aprelin 30-da İstanbul şəhərində keçirilən "IDEF-2019" sərgisinin açılışı olub.

Türkiyə Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Beynəlxalq Müdafiə Sərgisinin təntənəli açılış mərasimində iştirak edib.

Türkiyə Respublikasında səfərdə olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov "IDEF-2019" Beynəlxalq Müdafiə Sərgisində nümayiş etdirilən müxtəlif şirkətlərin istehsalı olan silah, texnika və hərbi təyinatlı vasitələrə baxış keçirib.




## HHM bölmələrinin taktiki-xüsusi təlimi keçirilib

Müdafiə nazirinin təsdiq etdiyi 2019-cu ilin döyüş hazırlığı planına uyğun olaraq, Azərbaycan Hərbi Hava Qüvvələrinin (HHQ) Hava Hücumundan Müdafiə (HHM) hissə və bölmələrinin taktiki-xüsusi təlimi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təlim zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr təyin edilmiş rayonlara çıxarılıb, şərti düşmənin hava hədəflərinin aşkar edilməsi və verilən tapşırığa əsasən qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətləri məşq etdirilib.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***29 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Çiləbürt, Füzuli rayonunun Qərvənd, Qaraxanbəyli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***30 aprel 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 22 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə, İcevan rayonunun Berkaber kəndində yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində və adsız yüksəkliklərdə, Berd rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Muncuqlu kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Kəngərli, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

## Müdafiə Nazirliyində ehtiyatda və istefada olan bir qrup hərbi qulluqçu ilə görüş keçirilib

***Aprelin 26-da Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində ehtiyatda və istefada olan bir qrup hərbi qulluqçu ilə görüş keçirilib.***



Ümummilli lider Heydər Əliyev və Azərbaycanın müstəqilliyi uğrunda canlarından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə çıxış edən Müdafiə nazirinin müavini general-leytenant Kərim Vəliyev Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən orduya göstərilən diqqət və qayğıdan söz açaraq ordu quruculuğu sahəsində aparılan islahatlar, əldə edilən uğurlar barədə ətraflı məlumat verib və bu yolda veteranların xidmətlərindən danışıb. O, gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında ehtiyatda və istefada olan hərbi qulluqçuların böyük rol oynadığını vurğulayaraq onların daha fəal olmalarını tövsiyə edib.

Veteranlar bu cür görüşlərin mütəmadi keçiriləcəyinə ümidvar olduqlarını bildirərək bəzi problemlərin həlli yolları barədə müzakirələr aparıb, səmərəli təkliflər irəli sürüb və bir sıra məsələlərin baxılması ilə əlaqədar müraciət ediblər.

Sonda birgə nahar təşkil olunub.

## İstanbulda “24 apreldən sonra erməni iddiaları” mövzusunda konfrans keçirilib

Türkiyənin İstanbul şəhərində "24 apreldən sonra erməni iddiaları" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfi tərəfindən təşkil olunan konfrans Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının üzvü, professor Aygün Attarın moderatorluğu ilə baş tutub.

Tədbirdə çıxış edən Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri Akkan Suver Türkiyəyə irqçi nifrət bəsləyənlərin bu fikirdən daşınmalarının və beynəlxalq məhkəmənin qərarlarına tabe olmalarının vacibliyini bildirib. O, Türkiyənin illərdir davam edən "Biz arxivlərimizi açdıq, siz də açın" çağırışının ermənilər tərəfindən cavabsız qaldığını vurğulayıb. A.Suver 100 il əvvəl baş vermiş hadisələrin əsassız şəkildə yenidən gündəmə gətirildiyini, lakin Qarabağda baş verənlərə göz yumulduğunu bildirib.

Qardaş ölkənin 2005-ci ildə yol xəritəsi hazırlayaraq bu məsələnin siyasətçilərin deyil, tarixçilərin araşdırmasını təklif etdiyini bildirən Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım deyib: "Bizim tariximizdə qara ləkə yoxdur. Birinci Dünya müharibəsi doğrudan da, ümumi ağrıların yaşandığı dövrdür. Biz buna etiraz etmirik. Bir gecədə mənim ailəmdən də 20 nəfər öldürüldü. Lakin ailələrimiz bizi heç vaxt kin və nifrətlə böyütmədi".

Professor Aygün Attar 1915-ci ildə Osmanlı dövlətinə daxildən və xaricdən təzyiqlərin göstərildiyini, belə bir zamanda dövlətin birliyinin qorunması naminə köçün meydana gəlməsinin zəruri hal olduğunu qeyd edib. Osmanlının bu seçiminin dövlətə qarşı çevrilən güclərin zərərsizləşdirilməsi olduğunu bildirən Aygün Attar bu köç nəticəsində yalnız ermənilər deyil, 2 milyon 500 mindən çox müsəlmanın, o cümlədən türkün də həyatını itirdiyini xatırladıb.

Digər natiqlər 1915-ci il hadisələrini ətraflı təhlil ediblər.

Tədbirdə Azərbaycanın İstanbuldakı baş konsulu Məsim Hacıyev, Diaspora İş üzrə Dövlət Komitəsinin aparat rəhbəri Daşqın Rəcəbli, Türkiyənin millət vəkilləri, tarixçilər və ziyalılar iştirak ediblər.

# Azərbaycan Ali Hərbi Məktəbində “Heydər Əliyev və ordu quruculuğu” mövzusunda tədbir keçirilib

*Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü və Azərbaycan Ali Hərbi Məktəbinə xalqımızın Ümummilli Liderinin adının verilməsinin 15-ci ildönümü münasibətilə hərbi təhsil ocağında "Heydər Əliyev və ordu quruculuğu" mövzusunda tədbir keçirilib.*





Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşün əhəmiyyəti barədə iştirakçılara məlumat verən polkovnik Emin Səfərov belə tədbirlərin silsilə olaraq davam edəcəyini şəxsi heyətin diqqətinə çatdırıb.

Sonra Milli Məclisin deputatları Aydın Mirzəzadə "Ümummilli lider, əbədiyaşar komandan Heydər Əliyev Azərbaycan Ordusunun qurucusudur", Elman Məmmədov isə "Ulu öndər Heydər Əliyev XXI əsrin görkəmli siyasi və dövlət xadimidir" mövzularında məruzələrlə çıxış ediblər. Onlar Ümummilli Liderin şərəfli həyat yolundan və fəaliyyətindən, dahi şəxsiyyətin Azərbaycanın çiçəklənməsi, ordumuzun qüdrətlənməsi uğrunda gördüyü işlərdən danışıblar.

Sonda Azərbaycan Ali Hərbi Məktəbinin rəisi general-mayor Fizuli Salahov çıxış edərək Heydər Əliyevin adını daşıyan məktəbin onun ideyalarının həyata keçdiyi ali hərbi təhsil ocağı olduğunu bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Yekunda iştirakçılara "Heydər Əliyev və ordu quruculuğu" adlı qısametrajlı film təqdim olunub.

# “Döyüşə biz də hazırıq”

**(Əvvəli 1-ci səhifədə)**

Döyüş hazırlığı məşğələsində verilən tapşırıqlar şəxsi heyət tərəfindən normativə uyğun və çevik icra olunurdu. Məşğələdə heyət nəfərlərinin hər birinin öz vəzifə borcunu dərindən mənimsəməsi aydın hiss olunurdu.

Üzərlərinə düşən əsas vəzifənin şəxsi heyətə yüksək bilik və bacarıq aşılamaq olduğunu deyən kiçik çavuş Yasin Alıyev təlimlərin də önəmindən bəhs etdi. "Təlim və dərs proseslərində bütün normativlərin vaxtında və dəqiq yerinə yetirilməsi əsas prinsip kimi götürülür. Çünki artilleriya yüksək dəqiqlik tələb edir. Atəş mövqeyinin tutulması, texnikanın döyüşə hazır vəziyyətə gətirilməsi də yüksək peşəkarlıq tələb edən proseslərdir. Əsgərin ona verilən tapşırığın öhdəsindən bacarıqla gəlməsi önəmli məsələdir. Tapşırıqların operativ şəkildə yerinə yetirilməsi artilleriya qoşunlarında tələb olunan vacib şərtlərdən biridir. Dərslər, təlimlər sayəsində şəxsi heyət öz bilik və bacarıqlarını təkmilləşdirir. Dərslər Müdafiə Nazirliyi tərəfindən təsdiq edilmiş döyüş hazırlığı planına əsasən təşkil edilir. Artilleriya ixtisası ilə tanışlığı olan hər kəs yaxşı bilir ki, topçu həm zehni, həm də fiziki cəhətdən güclü olmalıdır. Ona görə də şəxsi heyətin fiziki hazırlığı da daim diqqət mərkəzində saxlanılır".

Memarlıq və İnşaat Universitetinin məzunu əsgər Qüdrət Rəhimov hər an döyüşə hazır olduqlarını bildirdi, məşğələlərdə komandirləri tərəfindən onlara keçirilən dərs barədə bizə məlumat verdi. "Komandirlərimizin rəhbərliyi altında təşkil olunan məşğələlərdə ixtisas, taktiki və atış bacarıqlarımızı artırırıq. Hər bir əsgər ona təhkim olunan silahın taktiki-texniki xüsusiyyətlərini bilməli, nəzəri biliklərdən əlavə praktiki biliklərini də daim təkmilləşdirməlidir. Keçirilən dərslərdə hər birimiz komanda şəklində tapşırıqları yerinə yetirmə vərdişlərini öyrənirik".



Əsgər Amil Məmmədov əsgər yoldaşları ilə bir amala xidmət etdiklərindən, bu müqəddəs vəzifənin verdiyi qürurdan söz açdı: "Vətənimizə, xalqımıza sədaqətlə xidmət edəcəyimə söz verdiyim andiçmə mərasimi yadımdan çıxmaz. Ömrüm boyu yaddaşımdan silinməyəcək o gün ərazi bütövlüyümüzü və müstəqilliyimizi qoruyacağıma, bundan ötrü canımı əsirgəməyəcəyimə söz verdim. Bu gün Azərbaycan Ordusunda xidmət edən hər kəsi bir məqsəd birləşdirir - işğalda olan torpaqlarımızı azad etmək. Azərbaycan Ordusunun əsgəri kimi Vətən qarşısında müqəddəs borcumuzu ödəyirik".

Əsgər Orxan Əliyev bildirdi: "Aprel döyüşləri zamanı ordumuz qısa müddət ərzində düşməni ağır məğlubiyyətə uğratdı və strateji cəhətdən vacib olan ərazilərimiz azad edildi. Bu gün ordu sıralarında Aprel döyüşlərində fərqlənən hərbi hissənin əsgəri olaraq xidmət keçdiyim üçün qürurluyam və Ali Baş Komandanın əmri ilə başlayacaq həlledici döyüşə biz də hazırıq".

Əsgərlərdən Aqil Əlizadə və Ramiq Abbasov da Azərbaycan Ordusunun əsgəri olmaqlarıyla qürur duyduğunu və digər silahdaşları kimi düşmənə qarşı döyüşə hər an hazır olduqlarını vurğuladılar.

**Leytenant
Fuad CƏFƏROV,
"Azərbaycan Ordusu",
fotolar
çavuş
Namiq PƏNAHOVUNDUR**

# “ATƏT regionunda bir çox problemlərin həll edilməmiş qalmasına qətiyyən göz yummaq olmaz”

*Aprelin 29-da ATƏT Parlament Assambleyasının vitse-prezidenti və qurumun İpək Yoluna Dəstək Qrupunun sədri Azay Quliyev Minsk şəhərində keçirilən İpək Yoluna Dəstək Qrupunun ikinci beynəlxalq konfransı çərçivəsində Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenko tərəfindən qəbul olunub.*

AZƏRTAC xəbər verir ki, Prezident Aleksandr Lukaşenko İpək Yoluna Dəstək Qrupunun Minskdə "Bir kəmər, bir yol: davamlı inkişaf və tərəqqi üçün əməkdaşlığın dərinləşdirilməsi" mövzusunda keçirdiyi beynəlxalq konfransı yüksək qiymətləndirdiyini bildirib.

ATƏT regionunda həll olunmamış münaqişələrə toxunan dövlət başçısı bildirib ki, ATƏT regionunda bir çox problemlər həll olunmamış qalır, bunlara qətiyyən göz yummaq olmaz. Dağlıq Qarabağ, Dnestryanı kimi münaqişələr öz həllini tapmalıdır.

Azay Quliyev qəbul üçün Aleksandr Lukaşenkoya təşəkkürünü bildirərək, Belarusun ATƏT Parlament Assambleyası üçün çox vacib, fəal və qurumun işinə töhfələri ilə seçilən bir üzv ölkə olduğunu deyib. O, ATƏT PA-nın İpək Yoluna Dəstək Qrupunun ikinci beynəlxalq konfransının Bakıdan sonra Minskdə keçirilməsinin və ən önəmlisi, 2017-ci ildə İpək Yoluna Dəstək Qrupunun məhz Minskdə yaradılmasının Belarus Respublikasının bu ortaq işə marağının nə dərəcədə yüksək olduğunu sübut etdiyini bildirib.

ATƏT PA-nın vitse-prezidenti, həmçinin Azərbaycan ilə Belarus arasında bir çox sahələrdə uğurla inkişaf edən əlaqələrin, xüsusilə də Prezident İlham Əliyev ilə Prezident Aleksandr Lukaşenko arasındakı münasibətlərin dostluq və qardaşlıq nümunəsi olduğunu vurğulayıb. O, bu dostluğun parlamentlərarası və xalqlararası münasibətlərə də çox müsbət təsir etdiyini və ATƏT PA çərçivəsində hər iki ölkə arasında sıx əməkdaşlığa ciddi töhfə verdiyini qeyd edib.

Aprelin 29-da ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev Belarus parlamentinin sədri Vladimir Andreyçenko ilə də görüşüb və İpək Yoluna Dəstək Qrupu çərçivəsində gələcək əməkdaşlıq məsələlərini müzakirə edib.

AZƏRBAYCAN ORDUSU

# Altı əsrlik mərdlik simvolu - Nəsimi

## İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbir keçirilib

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamının icrasının təmin edilməsi məqsədilə Müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Azərbaycan Ordusunda İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş silsilə mədəni-kütləvi tədbirlər keçirilir.*





Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Altı əsrlik mərdlik simvolu - Nəsimi" adlı növbəti tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə Müdafiə Nazirliyinin nümayəndələri, xüsusi təyinatlı təhsil müəssisələrinin kursant və müəllim heyəti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşları, ölkəmizin tanınmış incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.

Azərbaycan xalqının ədəbi və fəlsəfi fikir tarixində dərin iz qoymuş mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyinə həsr olunmuş tədbirdə İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin əməkdaşı, dövlət qulluqçusu Zümrüd Səmədova çıxış edərək bildirib ki, Nəsiminin yaradıcılığı Şərq xalqlarının mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yer tutur.

Bu yaradıcılıq uzun illərdən bəri elmi fikrin diqqət mərkəzindədir. "50 il öncə ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə Nəsiminin 600 illik yubileyi keçirildi. Ötən illər ərzində Nəsiminin xatirəsinin əbədiləşdirilməsi istiqamətində mühüm addımlar atıldı. Onun ədəbiyyatda, incəsənətdə parlaq obrazları yaradıldı. 1973-cü ildə çəkilən "Nəsimi" bədii filmi Azərbaycan kino sənətində xüsusi yer aldı, 1979-cu ildə Bakıda mütəfəkkir şairin heykəli ucaldıldı. Bu il isə ölkə Prezidentinin sərəncamına əsasən respublikamızda İmadəddin Nəsiminin 650 illik yubileyi yüksək səviyyədə qeyd edilir. Bu gün keçirilən tədbirimiz də Azərbaycan Ordusunda keçirilən silsilə tədbirlərdən biridir".

Təntənəli mərasimdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin muğam sənəti kafedrasının müdiri, Xalq artisti Teyyub Aslanovun rəhbərliyi ilə universitetin müəllim və tələbələrinin ifasında Nəsiminin qəzəllərindən ibarət "Cahan mənəm" ədəbi-bədii kompozisiya təqdim olunub.

Sonda ekranda professor, Xalq rəssamı Arif Əzizin klassik sənət əsərlərindən ibarət rəsmləri nümayiş etdirilib.

# "Azərbaycan "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində mühüm rol oynayacaq"

Azərbaycan Cənubi Qafqaz regionunda həm nəqliyyat-logistika üzrə, həm də turizm və digər sahələr üzrə öz yerini müəyyənləşdirib. Bu səbəbdən ölkəmiz "Bir kəmər, bir yol" layihəsinin həyata keçirilməsində mühüm rol oynayacaq. Bununla yanaşı, "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumu bir kəmərin, bir yolun xalqlar, ölkələr arasında dostluğa, əməkdaşlığa verdiyi töhfələrin əhəmiyyətini ortaya qoyub. Azərbaycan Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bu layihə yalnız nəqliyyat bağlılığını təmin etmir. O, həmçinin müxtəlif ölkələr arasında əlaqələri gücləndirir, dialoq və əməkdaşlığın möhkəmləndirilməsi işinə xidmət edir və beynəlxalq ticarət üçün yeni imkanlar yaradır.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Münasibətlərin Araşdırılması Mərkəzinin sədri, politoloq Rufiz Qonaqov bildirib. O qeyd edib ki, ölkəmiz qlobal layihənin reallaşması nəticəsində Çinin böyük şirkətləri ilə əməkdaşlıq edəcək. Məsələnin siyasi tərəfinə gəldikdə isə, Azərbaycan-Çin münasibətləri möhkəm təməllər üzərində qurulub. Bu əməkdaşlığı dostluq, tərəfdaşlıq kimi xarakterizə etmək mümkündür. Çinlə Azərbaycan arasında əməkdaşlığın möhkəmlənməsi ilə bağlı çox vacib sənədlər imzalanıb. Ölkələr arasındakı münasibətlər siyasi cəhətdən kifayət qədər etibarlıdır və yüksək səviyyədə özünün təzahürünü tapıb. Çin tərəfi dəfələrlə Azərbaycanın ərazi bütövlüyünü birmənalı şəkildə dəstəklədiyini ifadə edib.

R.Qonaqov vurğulayıb ki, Avropanı Asiya ilə birləşdirən Bakı-Tbilisi-Qars dəmir yolunun istər iştirakçı, istərsə də dünya dövlətlərinin iqtisadi imkanlarının genişləndirilməsində rolu inkaredilməzdir. Azərbaycan bu kimi mühüm layihələrin uğurlu icrasına nail olmaqla tranzit ölkə kimi mövqeyini möhkəmləndirir. Azərbaycanın yerləşdiyi coğrafi məkan, malik olduğu təbii resurslardan səmərəli istifadə məqsədilə gündəmə gətirdiyi layihələrin uğurlu icrası ölkəmizə yeni tərəfdaşlar, dostlar qazandırıb. Politoloq qeyd edib ki, əməkdaşlıqlar öncə regional çərçivədə qurulub. İndi isə artıq bu əlaqələrin coğrafiyasının daha da genişləndiyinin şahidi oluruq.

Politoloq qeyd edib ki, qlobal layihənin həyata keçirilməsində bu və ya digər formada iştirak edən dövlətlər "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda təmsil olunublar. Təbii ki, Azərbaycan da həmin layihənin həyata keçirilməsində yaxından iştirak edir. Bu mənada Prezident İlham Əliyev də həmin tədbirdə Azərbaycanı təmsil edib. Beləliklə, hesab etmək olar ki, dünyanın iqtisadi cəhətdən ən qüdrətli dövlətlərindən biri olan Çin ilə Azərbaycanın əməkdaşlığı hər iki ölkənin xalqlarının mənafelərinə tamamilə uyğun gəlir. Kifayət qədər ciddi əsaslar mövcuddur ki, bu əməkdaşlıq daha da genişlənsin və inkişaf etsin.

Ümumilikdə Forumda parlaq gələcəyi şərtləndirən bütün amillərin nəzərdən keçirildiyini və dünyaya sülh, təhlükəsizlik, birlik və əməkdaşlıq mesajları ünvanlandığını söyləyən BMAM sədri bildirib ki, Azərbaycan sabitləşdirici amil, dinamik iqtisadi inkişafa malik ən islahatçı ölkə, dünya birliyinin fəal üzvü kimi bu çağırışlara böyük töhfələr verir.

# "Vətən saatı" layihəsi gənc nəslin Vətənə sevgisinin daha da artmasına xidmət edir




*İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin təşəbbüsü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Vətən saatı" adlı tədbir keçirilib.*

Mərkəzdən AZƏRTAC-a bildiriblər ki, tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov hərbi vətənpərvərlik ruhunun təbliğində "Vətən saatı" adlı layihənin həyata keçirilməsinin önəmini qeyd edərək veteranların hər zaman milli ruhu aşılayan tədbirlərdə fəal olduqlarını deyib.

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzinin sədri Samir Adıgözəlli yeni nəslin milli ruhda tərbiyə edilməsində Azərbaycan Silahlı Qüvvələri veteranlarının məxsusi rolu olduğunu qeyd edib. Bildirib ki, "Vətən saatı" adlı layihə də ölkəmizdə dövlətçilik mövqeyinin və vətənpərvərlik ruhunun daha geniş təbliği üçün həyata keçirilir.

Tədbir yazıçı Azər Hacıbəylinin "Vətən saatı" layihəsi çərçivəsində Sovet İttifaqı Qəhrəmanı, xalqımızın igid oğlu Mehdi Hüseynzadənin 100 illiyinə həsr etdiyi kitab ətrafında çıxışlarla davam edib. İstefada olan polkovnik-leytenant Nobel Muradxanlı Mehdi Hüseynzadəyə həsr olunmuş əsər haqqında fikirlərini bölüşərək qəhrəmanın xüsusiyyətləri barədə danışıb. Azər Hacıbəyli "Vətən saatı" layihəsi çərçivəsində qəhrəmanlarımızın tanıdılması istiqamətində atılan hər bir addımın gənc nəsildə Vətənə sevginin daha da artırılmasına xidmət etdiyini diqqətə çatdırıb.

İctimai-Siyasi Proseslər və Beynəlxalq Araşdırmalar Mərkəzi sədrinin müşaviri Yasəmən Möhübbətqızı gənclər, tələbələr və əsgərlərlə keçirilən görüşlərdə müharibə veteranlarının yaxından iştirak etməsinin vacibliyini qeyd edib.

Professor Nurulla Əliyev faşizm üzərində qələbənin ildönümü ərəfəsində Azərbaycan xalqının qəhrəman övladlarının xatirəsinin yad edilməsi və onlardan biri olan Mehdi Hüseynzadəyə həsr edilmiş əsərin gənc nəslin vətənpərvərlik hissi ilə böyüməsinə töhfə verəcəyini bildirib.

Doqquzqat dünya çempionu Araz Musayev və digərləri çıxış edərək "Vətən saatı" layihəsinin milli vətənpərvərlik ruhunun ölkəmizdə daha da yüksəldilməsi yolunda uğurlu addım olduğunu deyiblər.

# Heydər Əliyev təcrübəsi tükənməz həyat məktəbidir

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov.*

Əsrlərin təcrübəsi birmənalı şəkildə təsdiq edib ki, tarix həqiqətin təhrifi, faktların saxtalaşdırılması ilə heç vaxt barışmayıb. Həqiqətin gec-tez üzə çıxacağını yaxşı bilənlər əməllərini sözlərinin, sözlərini isə əməllərinin təsdiq etməsinə xüsusi diqqət yetirirlər.

Mənalı ömrünü sözü və əməlinin bütövlüyü ilə yaşayan və adı tarixə sağlığından əbədi həkk olunan dahi şəxsiyyətlərdən biri ulu öndər Heydər Əliyevdir. Ümummilli lider Heydər Əliyev həqiqəti bütün təhrif və saxtalaşdırma cəhdlərini puça çıxardıb. Heydər Əliyev həqiqəti görünən həqiqətdir və zamanın sınağından çıxdığı üçün əbədiliyinə tarix təminat verib.

XX əsrdə etnik mövcudluğumuzun qorunub saxlanılması və milli azadlığımızın qazanılması tarixini məqsədyönlü əməlləri ilə yazan ulu öndər Heydər Əliyevin həyatının hər günü həyat dərsliyidir, təcrübə məktəbidir. Bu milli sərvəti hərtərəfli və əsaslı öyrənməklə biz gələcəyimizin daimi sahibi ola bilərik.

Vətənini, xalqını sevən, milli ideallara xidməti özünün ən ümdə vətəndaşlıq vəzifəsi və borcu sayan hər bir şəxs Heydər Əliyevi Prezident, Ali Baş Komandan, ümummilli lider, diplomat, siyasi xadim, iqtisadçı, sıravi vətəndaş, ailə başçısı kimi öyrənməlidir. Dövlət quruculuğunu və dövlət idarəetməsini, müharibə vəziyyətində sərkərdəliklə incə diplomatiyanı birləşdirməyi, yeni ictimai-siyasi, sosial-iqtisadi münasibətlər dövründə cəmiyyətin demokratikləşdirilməsini, iqtisadi potensialın gücləndirilməsini əlaqələndirməyi, Vətənə, xalqa təmənnasız xidməti öyrənməlidir.

Azərbaycan Prezidentini tarixi dövlətçilik ənənəsi olan bir çox ölkə rəhbərlərindən fərqləndirən əsas cəhət milli azadlıq hərəkatını formalaşdırmaqla respublikanı əsarətdən qurtarması və müstəqil dövlət qurmasıdır. Qurulu dövləti idarə etmək yeni bir dövlət quraraq onu idarə etməkdən asandır. Tale isə Heydər Əliyevi sanki Azərbaycan xalqının qarşısına çıxan bütün problemləri həll etmək üçün gətirmişdi.

Prezident və dövlət xadimi kimi Heydər Əliyevin fəaliyyətini şərti olaraq milli müstəqilliyədək və milli müstəqillikdən sonrakı dövr olmaqla iki dövrə ayırmaq olar. Hər iki dövr üçün xarakterik cəhət Heydər Əliyevin həyatının mənası hesab etdiyi Azərbaycana xidmət etmək kimi müqəddəs amalına sonsuz sədaqətidir. Amalsa dəyişməyib, dəyişən amalı gerçəkləşdirmək yolları və vasitələridir. Onun fəaliyyətinin birinci dövründə əsas məqsəd milli ruhun şüurlu oyanışına nail olmaqla milli potensialı qoruyub saxlamaq və gələcək müstəqil Azərbaycan üçün sosial-iqtisadi, mənəvi-psixoloji, hərbi və elmi-mədəni baza yaratmaq idisə, ikinci dövrdə artıq müstəqil, suveren dövlətin azadlığına dönməz xarakter vermək, demokratik, dünyəvi, hüquqi dövlət qurmaq, nizami ordu yaratmaq, iqtisadiyyatı, mədəni-elmi həyatı dirçəltmək, sosial məsələləri nizamlamaq əsas vəzifələr idi.

Hər əsgər general ola bilməz, amma pis əsgər odur ki, general olmaq istəmir. Bizim hər birimiz, o cümlədən sərhəddə torpaq keşiyini çəkən sıravi bir əsgər də məhz ulu öndər Heydər Əliyev kimi şəxsiyyət olmağa cəhd göstərməlidir. Cəmiyyətdə belə bir cəhdin ənənəyə çevrilməsi əldə edilən uğurları daha da inkişaf etdirməyə qadir vətəndaşların yetişməsinə etibarlı təminat ola bilər.

Azərbaycanda müasir tipli ordunun həm nəzəri, həm də praktiki baxımdan yaradılması məhz Heydər Əliyevin tarixi xidmətidir. Hələ sovet dövründə milli hərbçi kadrların yetişdirilməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Cəmşid Naxçıvanski adına Hərbi Liseyin açılmasına nail oldu. Gənclər arasında hərb sənətinə mənfi münasibəti kökündən dəyişdirdi, təhlükəsizlik və hüquq-mühafizə orqanlarının milliləşdirilməsi prosesinə başladı. Hərbi qulluqçularımızın etirafları sübut edir ki, məhz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra sovet rejimində azərbaycanlı hərbçilərə yüksək rütbələr və məsul vəzifələr verilməyə başlanıldı. Keçmiş SSRİ-də xidmət edən hər bir azərbaycanlı əsgər, xüsusən də zabit Heydər Əliyevin simasında özünün karyerasına, bacarıq və istedadının qiymətləndirilməsinə qarant gördü. Elə o vaxtdan hərbçilər arasında Heydər Əliyev ordu quruculuğunu peşəkarcasına bilən, milli zabit kadrların yeganə himayədarı imicini qazanmışdı.

Milli azadlıq hərəkatı qələbə qazanandan sonra səriştəsiz adamların rəhbərliyə gəlişi ilə dövlət və ordu quruculuğunda anarxiya yarandı. Nəticədə cəbhəyə toplaşmalı olan silahlar təsadüfi əllərə düşdü, Bakıda cəbhə xəttindən daha çox və sürəkli atəş səsləri eşidilməyə başladı. Başıpozuq reket dəstələri hərbi birləşmələr adı altında "siyasi liderlər"in sözlə, əməli işlə gerçəkləşdirə bilmədikləri ambisiyalarını zorla reallaşdırmaq istəyirdilər.

Bir çox müxalifət liderləri silahlı dəstələrinin əhatəsində siyasi imic qazanmaq üçün canfəşanlıqla "Vətəndən" danışdıqları vaxtlar Heydər Əliyev əməli iş görür - Milli Ordunu yaradırdı. Dəmir intizamlı, müasir texnika ilə təchiz edilmiş, həqiqi peşəkarlarla gücləndirilmiş milli ordunun varlığı, ilk növbədə, özünün xarici havadarlarına arxalanan və "qələbə eyforiyası" yaşayan



erməni işğalçılarını atəşkəslə razılaşmağa vadar etdi. Ordunun sosial-məişət qayğıları, əsgər və zabit həyatinin döyüş hazırlığının təkmilləşdirilərək yüksəldilməsi, siyasi-ideoloji və tərbiyəvi işin müstəqil respublikamızın marağına uyğun qurulması Ulu Öndərin diqqət mərkəzində idi.

İnamsız əsgərin əlində silah, əslində, ya dəmir parçasıdır, ya da hara tuşlanması dəqiq bilinməyən ölüm mənbəyidir. Heydər Əliyev şərəfli xilaskarlıq missiyasına başlayanda müqəddəs amal naminə silaha sarılan vətənpərvər gənclər də bütün xalq kimi inamını itirmək təhlükəsi ilə qarşılaşmışdı. "Siyasi xadimlərin", "cəfakeş millət liderlərinin" sayı artdıqca çaşqınlıq da güclənirdi, hərbi-siyasi vəziyyət mürəkkəbləşdikcə, torpaqlarımız, şəhər və kəndlərimiz əldən getdikcə xalqın, o cümlədən silahlı vətənpərvər gənclərin əsl sərkərdəyə ehtiyacı artırdı. Müharibəyə cəlb olunmuş Azərbaycanda isə qanlı döyüşləri, ərazi işğalını, azğın düşməni nizami ordunun gücünə dayandırmaq fədakarlıq tələb edirdi. Bu fədakarlığı ilk dəfə məhz Ali Baş Komandan kimi Heydər Əliyev öhdəsinə götürdüyü gündən xalq həsrətlə gözlədiyi sərkərdəni tapdığını anladı. Heydər Əliyev Silahlı Qüvvələr üçün qanuni yolla seçilmiş və ümumxalq sevgisi qazanmış xilaskar sərkərdə idi.

Heydər Əliyevin fitri istedada malik fenomenal şəxsiyyət olduğu hətta dünyada da təsdiq olunmuş həqiqətdir. Onu sələflərindən və müasirlərindən fərqləndirən başlıca cəhət xalqa istinad etməsi və açıq fəaliyyət göstərməsi idi. Heydər Əliyev dünya miqyasında yeganə şəxsiyyətdir ki, xalqın yekdil istəyi ilə hakimiyyətə gəldi və prezidentliyini rəsmiləşdirərkən xalqın inamını, etibarını əsas götürdü. Bununla da Heydər Əliyevin yalnız prezidentliyi deyil, ümummilli liderliyi də təsdiq olundu.

Xalq Heydər Əliyevə sonsuz inam bəslədiyi kimi, o da xalqa inanırdı. Heydər Əliyev açıq fəaliyyət göstərən şəxsiyyət idi. 1994-cü ilin oktyabr, 1995-ci ilin mart dövlət çevrilişinə cəhdlər vaxtı Heydər Əliyev, ilk növbədə, xalqa müraciət edərək xəyanət haqqında ona açıq, dolğun məlumat verdi. Ən ağır məqamda da Bakını, ona inanan xalqını tərk etmədi. Onun cəsarəti, obyektivliyi bütün xalqı ayağa qaldırdı. Xalq, o cümlədən ordu qanuni Prezidentinin, xilaskarının, liderinin müdafiəsinə qalxdı. Heydər Əliyev ümummilli lider olduğunu əməli işlə təsdiq etdi. O, bu fəxri və şərəfli ada Prezident olmamışdan əvvəl layiq görüldü. Heydər Əliyev SSRİ dövründə respublikanın rəhbəri işləsə də, milli maraqları dövlət maraqlarından üstün tutub, milli ideologiyanı formalaşdıraraq onun təsiredici gücünün qorunub saxlanmasına çalışıb. Naxçıvan Ali Məclisinin sədri işləyərkən Azərbaycanın əvvəlki rəhbərliyinin görmədiyi işləri həyata keçirib. Bütün dövrlərdə Heydər Əliyev həm də tarixi xilaskarlıq missiyası kimi ona etibar olunmuş ümummilli liderliyini şərəflə doğruldub.

Heydər Əliyev diplomat, siyasi xadim, iqtisadçı, elm-sənət himayədarı, sıravi vətəndaş kimi nümunəvi təcrübə məktəbi yaradıb. BMT qərargahının qarşısından bayrağın asılması hələ respublikamızın dünyada tanınması demək deyildi. Dünya diplomatiyası tarixində Heydər Əliyev bəlkə də yeganə ölkə başçısıdır ki, əlində xəritə Azərbaycanın coğrafiyasını əyani nümayiş etdirməklə informasiya blokadasını dağıtmağı, düşmən tərəfinin saxtakarlığını üzə çıxarmağı özünə rəva bilib. Bu qeyri-adi faktın özü də Heydər Əliyev məktəbinin əvəzsiz dərsidir.

1993-cü ilədək Azərbaycanda vahid xarici siyasət kursu yox idi. Xarici ölkələrlə əlaqələrdə emosiyalar, utopik nəzəri mülahizələr mühüm rol oynayırdı. Heydər Əliyev xarici siyasət konsepsiyasını beynəlxalq normalara əsasən qurdu, prioritet istiqamətləri müəyyənləşdirərkən yaxın və uzaq strateji hədəfləri, dövlət və milli maraqları əsas götürdü. Diplomatik əlaqələrdə iqtisadi amilə xüsusi diqqət yetirməsinin sayəsində respublikamıza investisiya qoyuluşu geniş vüsət aldı. Ölkəmizin ərazi bütövlüyünün təmin edilməsində, daxildəki iqtisadi-sosial vəziyyətin sabitliyində marağı olan ölkələrin sayının artmasına nail oldu. Heydər Əliyev təcrübəsi tükənməz həyat məktəbidir. Bu məktəbi öyrənərək başa vurmaq mümkün deyil.

Ulu öndər Heydər Əliyevin layiqli davamçısı Prezident İlham Əliyev bu gün siyasi arenada, beynəlxalq aləmdə qəti addımlarını atır. O, özünü peşəkar siyasətçi, iqtisadçı, mahir diplomat kimi tanıdaraq böyük hörmət qazanıb. Dövlətimizin başçısı İlham Əliyevin uğurları yalnız ata Heydər Əliyevin deyil, eyni zamanda, Prezident, ümummilli lider Heydər Əliyevin həyat təcrübəsinin və məktəbinin təsdiqidir. Biz belə bir milli sərvətimiz olduğu üçün xoşbəxtik və bu sərvətin qədrini bilərək öyrənib mənimsəsək daha böyük nailiyyətlər qazanarıq.

## “Dağlıq Qarabağın müstəqilliyini tanımırıq”

*Uruqvayın xarici əlaqələr naziri vəzifəsini icra edən Ariel Berqamino ilə Azərbaycan Respublikasının Uruqvay Şərq Respublikasında akkreditə olunmuş səfiri Rəşad Aslanov arasında görüş olub.*

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan səfirinin müraciəti əsasında keçirilən bu görüşün başlıca məqsədi ikitərəfli gündəlikdə duran bir sıra məsələlərin müzakirəsi, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma rejimin "nümayəndəsinin" Uruqvaya gəlməsi və burada guya ki, ölkə rəsmiləri də daxil olmaqla görüşlərin keçirilməsi ilə bağlı mətbuatda yayılan məlumatlara aydınlıq gətirilməsi olub.

Görüş zamanı tərəflər ikitərəfli münasibətlərin müxtəlif məsələləri, o cümlədən mövcud yüksək səviyyəli əlaqələr haqda fikir mübadiləsi aparıblar. Burada, həmçinin Bakıda keçiriləcək V Mədəniyyətlərarası Dialoq Forumunda Uruqvayın xarici əlaqələr naziri Rodolfo Nin Novoanın iştirakı məsələsi də müzakirə edilib.

Azərbaycanın işğal edilmiş ərazilərində yaradılmış oyuncaq qurumun qondarma "xarici işlər nazirinin" Uruqvaya səfəri məsələsinə gəldikdə isə, Uruqvay hökumətinin mövqeyinin fundamental və dəyişilməz olduğu XİN rəsmisi tərəfindən vurğulanıb. Bəyan edilib ki, Uruqvay beynəlxalq hüququn aliliyinə və dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşır və Uruqvay Dağlıq Qarabağın müstəqilliyini tanımır. Münaqişənin sülh yolu ilə həll edilməli olduğu qeyd edilərək, Uruqvayın ATƏT-in Minsk Qrupunun səylərini və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini dəstəklədiyi vurğulanıb.

Görüş nəticəsində Uruqvay Baş Assambleyası (Parlament) rəhbərliyinin mətbuat açıqlaması yayılıb. Mətbuat açıqlamasında Uruqvay Baş Assambleya və Senatının rəhbərliyinin Xarici Əlaqələr Nazirliyi tərəfindən yayılmış mətbuat açıqlamasının və xüsusilə də açıqlamanın sonuncu bəndində qeyd olunmuş "Uruqvay beynəlxalq hüququn aliliyinə və dövlətlərin ərazi bütövlüyünə hörmətlə yanaşdığına dair mövqeyini bir daha bəyan edir, Dağlıq Qarabağın müstəqilliyini tanımadığını bir daha bildirir, münaqişənin sülh yolu ilə həll edilməli olduğu və bu məqsədlə Uruqvayın ATƏT-in Minsk Qrupunun səylərini və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrini dəstəkləyir" fikrini tam dəstəklədiyi bəyan edilib.

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq qrupunun rəhbərinə dərsə hazırlaşmaq üçün kömək)

**Suallar:**

**1. Sosial-psixoloji adaptasiyanın mahiyyəti.**

**2. Sosial-psixoloji adaptasiyanın mərhələləri.**

**3. Orduda döyüşçünün formalaşması.**

**Mövzu:** Əsgərin hərbi xidmətə sosial-psixoloji adaptasiya olunması.

*Sosial-psixoloji adaptasiyanın mahiyyəti*

Bu gün Azərbaycan Ordusundakı ən böyük dəyişiklik gənclərin daha çox mənəvi dəyərlərə ("Əsgərlik - kişilik, həyat məktəbidir", "Əsgərlik - Vətənə, torpağa, xalqa olan borcdur") üstünlük verməsidir. Bu dəyişikliklər əsgərlərin hərbi xidmət şəraitinin, onların fəaliyyətinin, şəxsiyyətinin və sosial-psixoloji problemlərinin dərindən öyrənilməsi ilə şərtləndirilir.

Müasir şəraitdə gənc əsgərlərin hərbi xidmətə sosial-psixoloji cəhətdən uyğunlaşma problemləri böyük əhəmiyyət kəsb edir. Belə ki, onlar özlərinə yaxşı tanış olan, özlərini rahat hiss etdikləri bir psixoloji mühitdən, tamamilə nabələd, tanımadıqları və bilmədikləri psixoloji mühitə düşürlər. Bütün bunların hamısı gənc əsgərlərin hərbi xidmətə uyğunlaşmasını daha da çətinləşdirərək, onu əziyyətli və münaqişəli bir dövrə çevirir. Bu uyğunlaşmanın şəxsiyyətlə və kollektivlə bağlı olan uğursuz nəticələri isə sonradan ordu mühitində neqativ və xoşagəlməz halların psixoloji səbəblərinə çevrilirlər. Söhbət gənc oğlanın əsgər kimi yetişməsindən getmir. Bir çox hallarda şəxsiyyətin formalaşması belə təhlükə altında qalır.

Gənc əsgərlərin xidməti, təlimi və ictimai fəaliyyətlərə ən əlverişli şəkildə uyğunlaşdırılması təlim-tərbiyə prosesinin səmərəliyinin artırılması üçün böyük rezerv (ehtiyat qüvvələr) yaradır. Bu onunla izah olunur ki, gənc əsgərlərin təlim və tərbiyəsinin, xidməti və ictimai fəallığının, hərbi intizamının, əhval-ruhiyyəsinin uğurlu olması böyük ölçüdə onların adaptasiya olunma dövrünün xüsusiyyətlərindən asılıdır.

Əsgərlərin adaptasiyasına sosial-psixoloji yanaşma şəxsin hərbi xidmət şəraitinə tədricən daxil olma və yeni mikromühitin (hərbi kollektivin) psixologiyasını mənimsəmə prosesi kimi müəyyən edilə bilər. Əsgərin sosial-psixoloji adaptasiyası prosesinin mahiyyəti cavan oğlanda əvvəllər yer almış dəyərlər, bacarıq və vərdişlər, davranış və ünsiyyət sistemini gənc əsgər olduqdan sonra onun şəxsiyyətinə verilən yeni tələblər əsasında dəyişikliklərin edilməsi arasındakı ziddiyyətlərin həll olunmasındadır. Mövcud ziddiyyət şəxsiyyətin davranışındakı köhnə üsulların dəyişdirilməsi prosesində, hərbi xidmətə uyğun yeni bacarıq və vərdişlərin yaradılması ilə həll olunur. Yeni həyat və fəaliyyət şəraitinin mənimsənilməsi əsəb gərginliyi, yüksək həyəcanlıq, mənfi emosiyaların yaşanılması və ünsiyyətdə baş verən münaqişələrlə sıx əlaqəlidir.

Uyğunlaşma dövrünün çətinliklərini dəf edən gənc əsgərin şəxsi keyfiyyətlərindən - onun xarakterindən, temperamentindən çox şeylər asılıdır. Sosial-psixoloji adaptasiya prosesində gənc əsgərin hansı dəyərlərə üstünlük verməsinin böyük əhəmiyyəti vardır. Əgər cavan oğlan hələ əsgərliyə gəlməmişdən qabaq təhsil və yaxud istehsalat kollektivinin ictimai həyatında fəal iştirak edibsə, hərbi xidmətin vacibliyini başa düşərək ona maraq göstəribsə, belə bir şəxs ilk 1-2 ay ərzində hərbi kollektivə də tez uyğunlaşa biləcəkdir.

Gənc əsgərlərin bəzilərində xarakterin və davranışın mənfi cəhətləri, müsbət keyfiyyətlərin zəif inkişafı və yaxud yoxluğu şəxsiyyətin uyğunlaşma qabiliyyətlərini xeyli azaldır, belə xarakterli əsgərlərin sosial-psixoloji adaptasiya prosesləri ləngidir. Bu cür insanlara hərbi kollektivlərdə çətin gəlir. Onlar təkcə komandirlərin deyil, hərbi kollektivin böyük bir hissəsinin irəli sürdüyü və özlərinin alışmadıqları tələblərə öyrəşmək məcburiyyətindədirlər. Belə hallarda hətta bir neçə uyğunlaşma variantları mümkün olur. Məsələn, neqativ istiqamətli şəxslərin bu cür qaydaları zahirən qəbul etsələr də, daxilən onlara riayət etmək fikirləri yoxdur. Bəzi hallarda onlar hətta komandirlərlə və ya elə kollektivin özü ilə açıq münaqişəyə girərək, bu "işlərində" özlərinə dəstək ola biləcək intizamsız əsgərlərdən tərəfkeşlər axtarırlar.

Əgər hərbi kollektiv zəifdirsə, kollektivin əksər üzvləri xidməti və ictimai məsələlərin həllində passivdirlərsə, komandirlər həqiqi vəziyyəti bilmirlərsə, belə olan halda gənc əsgərlərin digər adaptasiya variantını görmək mümkündür. Daha uzun müddət xidmət etmiş əsgərlər öz vəzifə borclarını gənc əsgərlərin üzərinə atmaqla, onlara istədiklərini yerinə yetirməklə, özləri üçün rahat xidmət şəraiti yaratmağa çalışırlar. Bəzi xidmətə mənfi münasibəti olan, cavan əsgərlər öz növbələrində xidmətin əvvəlində "qocaman" əsgərlərə yaltaqlanaraq, onların bütün tələblərini yerinə yetirərək, xoş münasibətini qazanmağa çalışırlar. Çünki özləri də xidmətin axırında bütün bu "güzəşt"lərdən istifadə etmək hüququnu qazanacaqlar.

Belə olan halda psixoloji yükün əsas çəkisi haqsız vəziyyətlə barışmaq istəməyən, müsbət meylli, habelə özünü müdafiə edə bilməyən fiziki və mənəvi cəhətdən zəif olan gənc əsgərlərin üzərinə düşür. Bu cür vəziyyət, əgər vaxtında nizamnamə qaydalarının təsbit olunması üzrə ən qəti ölçülər götürülməzsə, ciddi münaqişələr törədə bilər. Sosial-psixoloji adaptasiyanın spesifikası (özünə xas olan səciyyəvi cəhətləri) ondan ibarətdir ki, o hərbi xidmətin bütün sahələrini, o cümlədən yeni əsgərlərin döyüş, ictimai və təlim fəaliyyətlərinə uyğunlaşmasını əhatə edir.

Beləliklə şəxsiyyətin hərbi kollektivə sosial-psixoloji adaptasiya olunmasının mahiyyəti ikitərəfli prosesdir. Birinci tərəf əsgər və kollektiv arasında ilkin mərhələdə rəsmi (xidməti) və qeyri-rəsmi (şəxsi) münasibətlərin yaranması və əsgərin kollektivə uyğunlaşa bilməsi, ikinci tərəf isə razılaşdırılmış dəyərlər əsasında kollektivin gənc əsgəri öz sıralarına qəbul etməsi prosesidir.

*Sosial-psixoloji adaptasiyanın mərhələləri*

Sosial-psixoloji adaptasiya - şəxs və qrup tərəfindən yeni mühitin mənimsənilməsi prosesidir. Burada əsas sosial mühitin kəskin dəyişilməsilə əlaqəli və məişət şəraitinin dəyişikliklərinə uyğunlaşma (məsələn: günün nizam qaydaları, qida qəbulu, hamam, gigiyenik təmizlik qaydaları və s.) prosesləri fərqləndirilir:

Sosial-psixoloji adaptasiya prosesində yeni şəxsin sosial-psixoloji strukturu (onun dərketmə, emosional və iradi prosesləri) və hərbi kollektivin psixologiyası (bu isə artıq ictimai fikir, adət-ənənələr, mənəvi-psixoloji mühit, rəhbərlik və liderlik üslubu kimi amillərdir) qarşılıqlı əlaqələrə girərək bir-birlərinə təsir göstərirlər.

Gənc əsgərlərin hərbi xidmətə ilkin sosial-psixoloji adaptasiya olunmasının səciyyəvi xüsusiyyətləri aşağıdakılardır:

- öyrəşdikləri sosial-psixoloji mühitdən (ailəsi, məktəbi, dost və yoldaşlarından) kəskin ayrılma cavan oğlanlarda, xüsusilə ilk dövrdə yalqızlıq, tək qalma, darıxma, ailə, ana, ata həsrəti kimi hisslər yaşadır;
- yeni şərait, yeni öyrəşmədiyi tələblər, çoxlu sayda yeni insanlar bir çox cavan oğlanlarda çaşqınlıq, özünü itirmə, psixoloji gərginlik və stress yaradır;
- tələblərin əsgərin daxilində müqavimət yaradan komanda şəklində verilməsi, itaət etmə çətinliyi psixi cəhətdən dayanıqsız əsgərlərdə açıq şəkildə etirazlara, söz güləşdirmələrə və münaqişələrə səbəb olur;
- gənc əsgərlər arasında yoldaşlıq əlaqələri asanlıqla qurulur, eyni statusa malik olduqlarına görə eyni hüquqlu şəxslər kimi yerləşirlər. Bəzi çətinliklər yerli qruplar arasında yarana bilir.

İlkin sosial-psixoloji adaptasiya olunmanın ən vacib sahəsi gənc əsgərlərin komandirlərin tələblərinə uyğunlaşmalarıdır. Şəxsiyyətin hərbi xidmətə uyğunlaşmasının əsas faydası bu tələbləri qəbul və yaxud inkar etməsində, mülki şəxsdən hərbçiyə çevrilməsində ifadə olunur. Hərbçi insanı mülkidən fərqləndirənsə onun intizamlı olması, komandirin verdiyi sərəncamları, nizamnamələrin tələblərini vaxtında və dəqiq yerinə yetirməsi kimi keyfiyyətləridir.

Yeni şəraitlə tanış olduqdan, komandirinə öyrəşdikdən sonra gənc əsgər onunla müəyyən bir üslubu sınaqdan çıxararaq uyğun münasibətlər qurur. Sosial-psixoloji adaptasiyanın yekun mərhələsində gənc əsgərlərin şəxsi davranış xətti möhkəmlənərək sabit olur.

Gənc əsgərlərin öz bölmələrinə gəldikdən sonra sosial-psixoloji adaptasiyanın xarakterik xüsusiyyətləri aşağıdakılardır:

- yeni əsgərlərin qəbulu, şəxsin adaptiv davranışının xarakterini müəyyən edən müxtəlif səviyyələrdə inkişaf etmiş kollektivlərdə baş verir;
- sosial-psixoloji adaptasiyanın ən mühüm sahəsi şəxslə hərbi kollektiv arasındakı münasibətlərin qurulması sahəsidir. Başqa sahələrə adaptasiya bundan asılıdır;
- formal hərbi kollektiv, yeni hərbi kollektivin formallığı güclü stress amili kimi qəbul olunur. Bu da öz növbəsində gənc əsgərlərin sosial-psixoloji adaptasiyanın gedişatını təhrif edərək hərbi xidmətə olan münasibətin, intizamın pozulmasına gətirib çıxarır.

Çağırışla xidmət edən hərbi qulluqçuların adaptasiyasının əsas məzmunu onun növlərini müəyyən edir. Məişət uyğunlaşması gənc əsgərlərin ordudakı həyat şəraitinə uyğun psixikasında baş verən dəyişikliklərə öyrəşməsidir.

Uyğunlaşma prosesi təxminən növbəti qaydada cərəyan edir. İlk 1-2 ayı əsgər həyəcanlı vəziyyətdədir, xidmətə maraq göstərir, çox tez təsirlənir və bütün tapşırıqların yerinə yetirilməsinə çalışır. Bu dövrdə o, ailəsi və dostları ilə (ən azı 10-15 nəfərlə) sıx əlaqə saxlamağa çalışır. 2-4-cü aylar arası psixoloji cəhətdən ən çətin müddət sayılır. Əsgər kollektivə qatılır, yeni münasibətlər qurulur və köhnə əlaqələr azalır (2-3 nəfər). Bu dövrdə o, evdən ayrılığı ağır keçirir, tənhalıq, özünə inamın itməsi, başqalarından asılı qalma kimi hisslər yaşayır. Adətən 4 aydan sonra əsgər mənəvi-psixoloji cəhətdən bərkiyir və xidməti fəaliyyətini rahat keçirməyə başlayır.

Gənc əsgərin hərbi xidmətə uyğunlaşmasının mahiyyəti ondan ibarətdir ki, şəxsin yeni tələblərə uyğun olaraq, orqanizmin funksional sistemləri yenidən qurulmalı və hərbi ixtisasına səmərəli yiyələnməsinə imkan verməlidir. Adaptasiya prosesində gənc əsgərin ehtiyaclarının əsaslandırılması yeni vəzifələrə uyğun olaraq bilik, bacarıq və vərdişləri genişləndirilərək dərinləşdirilir. Bunun üçün köhnə stereotiplər sındırılmalı, əvəzində yeniləri yaradılmalıdır. Bu isə gənc əsgərlərdə gərginlik, mənfi emosiyalar, psixi vəziyyətlər, əsəbi-psixi taqətsizlik yaradır. Komandir gənc əsgərlərlə münasibətlərində bu amilləri mütləq nəzərə almalı və onların hərbi xidmətə sosial-psixoloji adaptasiya olunma fəaliyyətlərində öz köməyini əsirgəməməlidir.

*Orduda döyüşçünün formalaşması*

Müasir ümumqoşun döyüşündə əsgərin rolu qat-qat artır. Əsgəri vəzifəsini yerinə yetirərkən o öz qüvvəsini və həyatını əsirgəməməyə; komandirlərə (rəislərə) sözsüz tabe olmağa və onları döyüşdə qorumağa; hissənin Döyüş bayrağını göz bəbəyi kimi qorumağa; döyüşdə Azərbaycan Respublikası qarşısında əsgəri vəzifəsini axıradək yerinə yetirməyə borcludur. Heç nə, o cümlədən ölüm təhlükəsi belə onu əsir düşməyə məcbur etməməlidir. Hərbi and və nizamnamələr hər əsgərdən tələb edir:

- Azərbaycan Ordusu döyüşçüsünün vəzifə borcunu dərindən dərk etsin, Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına ciddi əməl etsin, Hərbi andın tələblərini yerinə yetirsin, sayıq olsun, Azərbaycanın mənafeyini vicdanla və inamla qorusun, bu işdə öz qüvvəsini, lazım gələrsə, həyatını da əsirgəməsin;
- hərbi işi vicdanla öyrənsin, komandirlərin (rəislərin) ona öyrətdiklərini möhkəm və səylə yadda saxlasın; öz vəzifələrini nümunəvi yerinə yetirsin; hərbi nizamnamələrin tələblərini dərindən bilsin və vicdanla yerinə yetirsin;
- komandirlərin (rəislərin) əmr və göstərişlərini sözsüz və vaxtında yerinə yetirsin; mərd və intizamlı olsun; nalayiq hərəkətlər etməsin və yoldaşlarını da belə hərəkətlərdən çəkindirsin;
- dövlət sirrini qorusun; komandirlərə (rəislərə) və böyüklərə hörmət etsin, hərbi nəzakət, davranış və əsgəri salamvermə qaydalarına ciddi əməl etsin;
- silahını, döyüş texnikasını və digər texnikanı yaxşı bilsin; həmişə saz, təmiz və döyüşə hazır vəziyyətdə saxlasın.

Hərbi xidmət zamanı əsgərdə tərbiyə olunan mənəvi-döyüş keyfiyyətləri:

- düşmən üzərində qələbəyə sarsılmaz inam. Bu keyfiyyət Azərbaycan əsgərinin qarşısına qoyulmuş məqsədlərin ədalətliliyinə və dərin inama əsaslanır. Əsgərin döyüş qabiliyyətini, ustalığını artırır və düşmənin darmadağın edilməklə qələbəni əldə etməsinə yönəldir. Qələbəyə inam təlim-məşq çalışmalarının gedişində və qarşıya çıxan bütün çətinlikləri dəf etməklə tərbiyə olunur;
- döyüş fəallığı. Döyüş şəraitində hər bir insan, kollektiv daim öz hərəkətlərinin səmərəliliyini artırmaq üçün üsullar axtarır. Bu isə gündəlik həyatla müqayisədə daha yüksək məsuliyyət tələb edir. Döyüş və ictimai-siyasi hazırlıq prosesində yaradılan fəal hərəkətlər və məqsədə çatmaq üçün daha səmərəli vasitələr axtarışını tələb edən mürəkkəb şəraitdə tərbiyə olunur;
- özünü idarəetmə və soyuqqanlılıq. Bu keyfiyyətin olmaması qorxaqlığın, özünü itirmənin, çaşqınlığın meydana çıxmasına səbəb olur, bu da döyüş şəraitində çox acınacaqlı vəziyyətə gətirib çıxarır.
- Hərbi anda, hərbi qulluqçu borcuna və şərəfinə sədaqət. Bu o deməkdir ki, hərbi qulluqçu döyüş və xidməti fəaliyyətində son damla qanına qədər vəzifə borcunu yerinə yetirməyə hazır olmalıdır.

Azərbaycanın ərazi bütövlüyünün hələ bərpa edilmədiyi, torpaqlarımızın düşmən işğalında olduğu bir vaxtda Azərbaycan Ordusunun gündəlik həyatında mənəvi-psixoloji hazırlığın əhəmiyyəti gündən-günə artır. Hər bir hərbi qulluqçu xidmət etdiyi hərbi hissədə yüksək döyüş qabiliyyətinin saxlanılması, döyüş hazırlığının yüksəldilməsi, hissə və bölmənin tapşırıqlarının müvəffəqiyyətli həlli üçün öz vəzifə borclarını şüurlu surətdə dərk etməli və onları vicdanla yerinə yetirməlidir.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# HDQ-də unudulmaz generallarımızın xatirəsi yad edilib

*Hərbi Dəniz Qüvvələrində 1918-1920-ci illərdə Azərbaycan Ordusunun ilk nizami hissələrinin yaranmasında əvəzsiz xidmətləri olmuş generallarımızın xatirəsinə həsr olunmuş tədbir keçirilib.*



Ümummilli lider Heydər Əliyev və torpaqlarımızın bütövlüyü uğrunda canından keçən şəhidlərimizin ruhu bir dəqiqəlik sükutla yad edildikdən sonra Dövlət himni ifa olunub.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə çıxış edənlər unudulmaz sərkərdələrimiz Səməd bəy Mehmandarov, Əlağa Şıxlinski, Məmmədbəy Sulkeviçin keçdiyi döyüş yolundan və Azərbaycan Ordusunun ilk nizami hissələrinin yaradılmasında göstərdikləri fədakarlıqdan danışıblar.

Sonra tədbir iştirakçılarına generallarımızın xidmətlərindən bəhs edən sənədli film nümayiş olunub.

Tədbir Azərbaycan Ordusunun İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı kollektivinin vətənpərvərlik mövzusunda təqdim etdiyi konsert proqramı ilə başa çatıb.

# “Şahin” hərbi-idman oyununun Bakı şəhəri üzrə zona mərhələsi keçirilib

*Aprelin 27-də Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi (BŞGİBİ) tərəfindən Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində "Şahin" hərbi-idman oyununun Bakı şəhəri üzrə zona mərhələsi keçirilib.*



BŞGİBİ-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Gənclər və İdman, Təhsil, Fövqəladə Hallar, Müdafiə nazirliklərinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin, Respublika Veteranlar Təşkilatının nümayəndələri iştirak ediblər.

Çıxışlarda qeyd olunub ki, ildən-ilə təkmilləşərək kütləviləşən bu oyuna məktəblər böyük maraqla qatılırlar. Bu oyun böyüməkdə olan nəslin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, məktəblilərin hərbi-idman oyunlarına marağının artırılmasında və onların ordu sıralarında xidmətə hazırlanmasında mühüm rol oynayır.

Yarışda paytaxt rayonlarının şagirdləri ilə yanaşı, Zəngilan, Şuşa və Laçın məktəbliləri də iştirak ediblər. İlk həftədə komandalar təntənəli marşla sıra addımı ilə hərəkət ediblər. Sonra komandalar sıra hazırlığı, avtomat darağının doldurulması və boşaldılması, avtomatın sökülüb-yığılması, tüfəngdən hədəfə atəş açmaq, fiziki hazırlıq, maneələrin dəf olunması, mülki müdafiə hazırlığı, çadırın qurulması mərhələləri üzrə mübarizə aparıblar.

Yekunda I və II yeri tutan komandalar mayda keçiriləcək respublika final mərhələsinə vəsiqə qazanacaq.



# Ermənistan ordusunda kriminal hadisələr

İşğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində baxımsızlıq səbəbindən hərbi qulluqçular arasında xəstələnənlərin sayı artmaqdadır.

İşğalçı ordunun hava hücumundan müdafiə bölməsinin iki əsgəri eyni gündə hərbi hospitala təxliyə edilib.

Tiqran Qazaryan və Artyom Şadağyan adlı hərbi qulluqçular hospitala yerləşdirildikdən sonra onların valideynlərinə bildiriblər ki, əgər övladlarının tez sağalması və normal hala gəlməsini istəyirlərsə, dərman preparatları almalıdırlar.

Hospitaldakı şəraitdən və tibbi ləvazimatların çatışmazlığından gileylənən A.Şadağyanın anasının dediyinə görə, hər iki əsgər hələ uzun müddət həkim nəzarətində qalmaq məcburiyyətində olacaq.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçuların müxtəlif yollarla xidmətdən yayınması halları artmaqda davam edir.

Ön xətt mövqeyində xidmət etməkdən yayınmaq istəyən Hovanes Knyazyan adlı hərbi qulluqçu 4 aydır ki, Ermənistan müdafiə nazirliyində xidmət edən qohumunun tapşırığına əsasən hərbi hospitalda saxlanılır.

Əsgəri hospitaldan çıxarmağa gücü çatmayan hissə komandiri, nəhayət ki, H.Knyazyanın xidmət etmək üçün yaxşı yerə və asan hərbi hissəyə keçirilməsi barədə Ermənistan müdafiə nazirliyindən "xoş xəbər", tapşırıq alıb.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmət edən hərbi qulluqçuların xəstələndiyi zaman müalicə üçün dərman preparatlarının çatışmaması valideynlərin böyük narahatlığına səbəb olur.

Eyni zamanda, həkimlərin səhlənkarlığı səbəbindən də xəstə əsgərlər bir çox xoşagəlməz hallarla rastlaşırlar. Belə bir hadisə bu yaxınlarda Tiqran Mxitaryan adlı hərbi qulluqçunun başına gəlib. Cərrahiyə əməliyyatından sonra halı pisləşən hərbçinin valideynləri övladlarının yenidən müalicəyə göndərilməsi üçün komandanlığa yalvarmaqdan yorulublar.

İş o həddə çatıb ki, övladlarının sağ qalması üçün, erməni əsgər T.Mxitaryanın valideynləri müalicənin bütün xərclərini özləri ödəyəcəklərini də boyunlarına götürüblər.

* * *

İşğal edilmiş Ağdərə yaşayış məntəqəsində yerləşdirilən Ermənistan silahlı qüvvələrinin bölmələrində xidmətdən yayınmaq məqsədilə eyni hərbi qulluqçuların bir neçə dəfə xidmət yerindən qaçması adi hal alıb.

Aram Qabucyan, Tiqran Sahakyan, V.Yeğikyan adlı hərbçilər soyuqdəymə və yüksək hərarət diaqnozu ilə Ağdərədə hərbi hospitala yerləşdiriliblər. Lakin müalicə müddəti bitdikdən sonra onlar xidmət yerlərinə qayıtmayıblar. Bu barədə hospitalın işçisi Gevond Tadevosyan məlumat verib.

Xəbərdə o da bildirilir ki, adı çəkilən hərbi qulluqçular bir neçə dəfə xidmətdən yayınmaq məqsədilə hərbi hissədən qaçıblar. Hərbi qulluqçuların xidmət yerinə qaytarılmaları üçün tədbirlər görülür.

**Hazırladı:**
**İsa ELDAROĞLU**

# Xəbərlər:
## hadisələr, faktlar

### İran Hörmüz boğazını bağlamağa çalışmır



Hörmüz boğazı dünya iqtisadiyyatı üçün strateji əhəmiyyət kəsb edir və İran bu boğazı bağlamağa çalışmır.

Bu sözləri İran Silahlı Qüvvələrinin Baş Qərargah rəisi general Məhəmməd Baqeri deyib. General diqqətə çatdırıb ki, İranın boğazdakı hərbi gəmiləri həmişə xoş niyyətli olub. Lakin buradakı xarici hərbi kontingent sabitliyi pozmağa çalışsa, İran onların layiqli cavabını verəcək.

M.Baqeri vurğulayıb ki, Hörmüz boğazının təhlükəsizliyini İran təmin edir və boğaz tam olaraq İran hərbi donanmasının nəzarətindədir.

### ABŞ Yaponiyaya yeni zərbə-desant gəmisi göndərir



ABŞ hərbi dəniz qüvvələrinin komandanlığı Yaponiya Müdafiə Nazirliyinə ölkənin cənub-qərbindəki Kyuşu adasında yerləşən Sasebo hərbi dəniz bazasına "Amerika" yeni zərbə-desant gəmisinin göndəriləcəyi barədə rəsmi məlumat verib.

Bu barədə Kyodo agentliyi Müdafiə Nazirliyinə istinadla məlumat yayıb.

Bildirilir ki, "Amerika" gəmisi beşinci nəsil F-35B döyüş təyyarələri, "Osprey" konvertoplanları, helikopterlər və 1700 hərbi dəniz piyadası kontingenti ilə təchiz edilib. "Amerika" gəmisinin Sasebo bazasındakı "Wasp" universal desant gəmisini əvəz edəcəyi qeyd edilir.

Qeyd edək ki, uzunluğu 260 metr olan "Amerika" gəmisi 44 ton su tutumuna malikdir və yüngül aviadaşıyıcı hesab edilir. Bu gəminin Uzaq Şərq sahillərinə göndərilməsi ABŞ hərbi dəniz qruplaşmasını gücləndirməklə Çinə hərbi təzyiqi artırmağa xidmət edir.

İkinci Dünya müharibəsindən sonra Yaponiyada ABŞ-ın 7-ci donanması yerləşdirilib. Onun sərəncamında 70 müxtəlif tip gəmi və 300 təyyarə var.

### Xabarovsk diyarında “Yak-18” təyyarəsi qəzaya uğrayıb



Xabarovsk diyarında "Yak-18" təyyarəsi qəzaya uğrayıb.

Hadisə nəticəsində iki nəfər həlak olub. Xabarovsk rayon Administrasiyasından TASS informasiya agentliyinə verilən məlumata görə, qəzaya uğramış təyyarə keçmiş hərbi aerodromda yerə enib. Təyyarə eniş edəndən sonra alovlanmayıb.

Həlak olanlardan biri Uzaq Şərq Aviasiya İdmanı Federasiyasının prezidenti Vladimir Levşindir.

### Şri-Lankada yeni terror təhlükəsi barədə xəbərdarlıq edilib




Şri-Lankanın dövlət kəşfiyyat xidməti yerli "Camaat ət-Tövhid əl-Vətəniyyə" qruplaşması üzvlərinin yeni hücumlara hazırlaşdığı barədə informasiya alıb.

Yeni hücumların hədəfi adada yerləşən buddist məbədləri ola bilər.

Pasxa bayramı zamanı baş verən partlayışlar seriyasından sonra polis terror əleyhinə bir sıra reydlər keçirib. Reydlər zamanı evlərdən birində çox sayda qadın geyimi aşkarlanıb. Buna görə də, ekstremistlərin növbəti hücumlar zamanı qadın kamikadzelərdən istifadə edəcəyi gözlənilir. Bu gündən etibarən, həmçinin sakinlərin sifəti örtən paltar geyinməsinə qadağa tətbiq olunub.

**AZƏRTAC-ın materialları əsasında**

# Hərbiləşdirilmiş kross yarışının qalibləri mükafatlandırıldı

*Müdafiə naziri general-polkovnik Zakir Həsənovun 2019-cu il üçün təsdiq etdiyi plana əsasən, hərbiləşdirilmiş kross üzrə ordu birinciliyi idman yarışının Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində təntənəli bağlanış mərasimi keçirildi.*



Hərbiləşdirilmiş kross üzrə keçirilən yarış döyüşçülərə zəruri keyfiyyətləri aşılayan idman növlərindəndir. Artıq neçə illərdir ki, bu idman növü ordumuzda fəaliyyət hüququ qazanıb. Hərbiləşdirilmiş kross idmançılarda çeldlik, dözümlülük, silahlardan məharətlə istifadə etmək bacarığı, sərrastlıq tələb edir. Ona görə də bu idman növü hərbçilərin peşəkarlıq qazanmasında mühüm önəmə malikdir. Birinciliyə müxtəlif qoşun növlərini, xüsusi təyinatlı təhsil müəssisələrini təmsil edən 14 komanda qatılmışdı. Yarışın qaydalarına uyğun olaraq, hər komandadan təyin edilmiş idmançılar müəyyən olunan məsafəni qət etməli, atəş yerində hədəfə üç dəfə atəş açmalı idi. Bu mərhələni keçən idmançı növbəti mərhələdə üç qumbaranı hədəfə atmalı və qaçışı davam etdirərək, finişə çatmalı idi.

İdmançı silahdan atəş açarkən hədəfi vurmadığı və ya qumbaranı 40 metrdən az məsafəyə atdığı halda, komandanın ümumi nəticəsindən cərimə balları çıxılırdı. Onların nəticələri həm fərdi hesabda, həm də komanda hesabında birinciliyi idarə edən hakimlər tərəfindən nəzərə alınırdı. Yarışda komanda hesabında ən yaxşı nəticə göstərmiş iki idmançının göstəricisi qeyd edilir və bu göstəricilərə uyğun olaraq komandaların xalları hesablanardı.

Bağlanış mərasimində çıxış edən Müdafiə Nazirliyi Döyüş Hazırlığı və Hərbi Təhsil Baş İdarəsinin şöbə rəisi polkovnik Sadiq Paşayev birinciliyin nəticələrini təhlil edərək yarışların ədalətli keçdiyini, ən bacarıqlıların qalib gəldiyini bildirdi. "Bütün idman yarışlarında olduğu kimi, bu dəfəki yarışda da hərbçilərimiz həm fiziki hazırlıq, həm sərrastlıq, həm də əzmkarlıq baxımından nəyə qadir olduqlarını bir daha nümayiş etdirdilər. Birincilikdə iştirak edən hər bir hərbi qulluqçu yüksək yerlər uğrunda mübarizədə öz gücünü sınayaraq, nəyə qadir olduğunu göstərmək üçün hərbçiyə xas əzmkarlıqla mübarizə apararaq medallar uğrunda bütün imkanlarını ortaya qoydular. Hesab edirəm ki, ən güclülər bu birincilikdə medallara layiq yerləri tutdular. Hansı komandalar ki, hərbiləşdirilmiş kross yarışına daha yaxşı hazırlaşmışdılarsa, onlar da qalib gəldilər."

Zabit, həmçinin hərbiləşdirilmiş kross yarışında ordumuzda xidmət edən qadın hərbi qulluqçuların da iştirak etdiyini vurğuladı. "Bu il ötən illərdən fərqli olaraq hərbiləşdirilmiş kross yarışına qadın hərbi qulluqçularımız da qatıldılar. Mən qadınların bu idman növündə çətinlik çəkəcəyini düşünürdüm. Amma gördüklərim fikirlərimi yanıltdı. Onlar öz əzmkarlıqlarını bir daha sübut etdilər. Qadın hərbi qulluqçular heç də kişilərdən geri qalmırdılar. Nəticələr demək olar ki, elə də fərqlənmirdi. Yarışda iştirak edən bütün qadın hərbi qulluqçularımızı da xüsusi olaraq təbrik edir, gələcək idman yarışlarında və xidmətlərində uğurlar arzulayıram."



Zabitin çıxışından sonra yerlər üzrə qaliblər elan olundu. Yarışların nəticələrinə görə kişilər arasında fərdi birincilikdə birinci yerə "Beyləqan" komandasının idmançısı əsgər Elşən İbişov, ikinci yerə "N" hərbi hissəsinin idmançısı müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ələkbər Əkbərov, üçüncü yerə "Beyləqan" komandasının idmançısı əsgər Şamxal Quliyev layiq görüldülər.

Qadınlar arasında fərdi birincilikdə birinci yerə Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin zabiti mayor Cəmilə İrəfiyeva, ikinci yerə "N" hərbi hissəsinin hərbi qulluqçusu əsgər Pərvanə Heydərova, üçüncü yerə "Bərdə" komandasının hərbi qulluqçusu əsgər Səma Xəlilova çıxdılar.

Kiçik komandalar arasında ən yaxşı nəticəni Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin krossçuları göstərdilər.

Ümumi hesabda birinci qrup üzrə ən yüksək pilləyə "Beyləqan" komandası layiq görüldüyü halda, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzi ikinci və "N" hərbi hissəsinin idmançıları isə üçüncü oldular.

Qalib gələn komandalar və idmançılar diplomlar və fəxri fərmanlarla mükafatlandırıldılar. Birinci yerə çıxan komandaya isə Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisinin təsdiq etdiyi birinci dərəcəli diplom və kubok təqdim olundu.

Sonda idmançılar xatirə şəkli çəkdirdilər.

Tədbir yekunlaşdıqdan sonra ilk dəfə bu idman növündə iştirak etməklərinə baxmayaraq öz bacarıqlarını nümayiş etdirərək qalib gələn qadın hərbi qulluqçularımızla da həmsöhbət olduq. İlk həmsöhbətim qadınlar arasında fərdi birinciliyin qalibi mayor Cəmilə İrəfiyevadır. Qalib gəlməyin sevincini bizimlə bölüşən zabit qarşıya qoyulan məqsədin qalibiyyətə aparan yol olduğunu bildirdi. "Çox şadam ki, ilk dəfə qadın hərbi qulluqçuların da qatıldığı bu idman növündə qalib gəldim və ən yüksək pilləni tutdum. Yarışa ciddi hazırlaşmışdım. Məqsədim uğur qazanmaq idi. Mənə göstərilən etimadın məsuliyyəti çiyinlərimə əlavə yük qoyurdu. Əsas hədəfim, şübhəsiz, birinci olmaq idi. İdmançı gərək hər vəziyyətə hazır olsun. Rəqiblərim arasında hazırlıqlı idmançılar vardı. Demək olar ki, hamısı birinciliyə iddialı idi. Bütün bunlara baxmayaraq özümü həm fiziki, həm də psixoloji cəhətdən yarışa kökləmişdim. Şükürlər olsun ki, qalibiyyəti əldən vermədim. Qazandığım nailiyyət mənə yorğunluğumu unutdurdu, əlavə güc və stimul verdi. Ən böyük arzum beynəlxalq səviyyəli yarışlarda ordumuzu layiqincə təmsil etmək, bayrağımızı dalğalandırmaqdır."



Növbəti həmsöhbətim ikinci yerin qalibi "N" hərbi hissəsinin hərbi qulluqçusu əsgər Pərvanə Heydərovadır. Pərvanə xanım yarışqabağı hazırlıqların yüksək səviyyədə keçdiyini və buna görə də mükafatçılar sırasında yer aldığını bildirdi. "Yarışa gəlməmişdən öncə gərgin hazırlıq prosesi keçmişdim. Hərbi hissəmizdə hazırlıq üçün hər cür şərait yaradılmışdı. Mövcud şərait, zəruri avadanlıqlar bizə yarışa hazırlığımıza əlverişli imkan yaradır. Ali Baş Komandanımız tərəfindən ordumuza göstərilən diqqət və qayğı bizə əlavə stimul verir. Bunlarla yanaşı, özümə də inanırdım. Var qüvvəmi sərf etmişdim. Yalnız qələbəyə köklənmişdim. Qeyd etməliyəm ki, yarışda iştirak edən idmançıların hamısı birincilik üçün mübarizə aparırdı. Mən rəqibimdən az fərqlə geridə qaldım və ikinci oldum. Ümid edirəm ki, növbəti hərbiləşdirilmiş kross yarışında daha da əzmlə çalışacaq və birinci olacam. Bu arada yarışın keçirilməsində böyük dəstəyə görə Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlığımı bildirirəm. İnanıram ki, ordumuzu istər respublika, istərsə də beynəlxalq səviyyədə təşkil olunan yarışlarda layiqincə təmsil edəcəm və yaxşı nəticələr göstərəcəm."

Sonda birinci yerin sahibi "Beyləqan" komandasının üzvləri ilə həmsöhbət olmaq imkanı qazandıq. Kuboku qürurla havaya qaldıran komandanın rəhbəri mayor Elman Hadıyev qazandıqları qalibiyyətin xidmətləri boyunca əvəzsiz rol oynayacağını vurğuladı.

- Şadam ki, əziyyətimiz hədər getmədi. Bu kubokun qazanılmasında əziyyəti olan hər kəsə minnətdaram. Düzdür, bu uğurun təməlində gərgin məşqlər və idmançıların peşəkarlığı, istedadı dayanır. Komandamızın hər bir üzvü yarışa ciddi şəkildə hazırlaşmışdı. Ümumi əhval-ruhiyyəmiz, mənəvi-psixoloji durumumuz yüksək səviyyədə idi. Tam olaraq qələbəyə köklənmişdik. Tək hədəfimiz yarışdan qalib komanda kimi ayrılmaq idi. Komandamızın üzvlərinin fiziki və taktiki hazırlığı qələbə qazanmağımıza inam yaradırdı. Komandanın rəhbəri kimi hər bir idmançımızın əzmlə mübarizə aparacağına inanırdım. Onların bu mötəbər yarışda öz bacarıqlarını layiqincə nümayiş etdirəcəklərinə tam əmin idim. Nəhayət ki, istəyimizə nail olduq. Unutmayaq ki, bu bir yarışdır, ən güclülər qalib gəlirlər. Digər komandalar da yüksək səviyyədə hazırlaşmışdılar. Hakimlər də yarış zamanı ədalətli qərarlar qəbul etdilər. Ümumilikdə komandamızın çıxışını yüksək dəyərləndirirəm. Şübhəsiz, bu qalibiyyət bizi arxayınlaşdırmayacaq. Ümid edirəm ki, digər yarışlarda da kuboklar qazanaraq, bizə göstərilən etimadı doğruldacağıq.

Qələbənin qazanılmasında xüsusi fərqlənən, yüksək xallar toplayaraq komandanın birinci olmasına nail olan müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Şamxal Quluyev, qadın hərbi qulluqçu əsgər Aytən Hacıyeva və əsgər Elşən İbişov da bu qələbədən qürurla danışaraq növbəti yarışlara daha da hazırlıqlı gələcəklərini bildirdilər.

Müsahiblərimin timsalında biz də bir daha bütün medal qazananları, ümumilikdə yarışda iştirak edən hər bir hərbi qulluqçunu ürəkdən təbrik edir, onlara yeni-yeni uğurlar və qələbələr arzulayırıq.

**Baş leytenant**
**Məhəmməd NƏSİRLİ,**
**"Azərbaycan Ordusu"**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Ruslan HƏSƏNZADƏ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 379
Nüsxə 3950